Yeni Azərbaycan Partiyası dünənin, bu günün və gələcəyin partiyasıdır!

Yeni Azərbaycan Partiyası tərəfindən Bərdə şəhərinə 500 ailə üçün nəzərdə tutulmuş humanitar yardım çatdırılıb

Ermənistanın terrorçu dəstələri tərəfindən yaşayış məntəqələrimizin və dinc əhalinin atəşə tutulması nəticəsində zərərçəkmiş ailələrə qayğı göstərilməsi, yardım edilməsi Yeni Azərbaycan Partiyasının (YAP) fəaliyyətində prioritet istiqamətlərdən birini təşkil edir.

Yeni Azərbaycan Partiyasının Vətən müharibəsinin davam etdiyi günlərdə "Birlikdə güclüyük" kampaniyası çərçivəsində erməni faşistlərinin hədəfinə çevrilmiş Gəncədə və Azərbaycanın digər şəhər və kəndlərində həyata keçirdiyi humanitar layihə bu gün də davam etməkdədir.

YAP nümayəndələri ötən həftə Bərdə şəhərinə səfər etmişdilər. Partiyanın təmsilçiləri şəhərin raket hücumuna məruz qalması nəticəsində evləri dağılmış ailələri ziyarət etmiş, onların problemləri ilə maraqlanmışdılar.

Noyabrın 12-də isə Yeni Azərbaycan Partiyası tərəfindən Bərdə şəhərinə 500 ailə üçün nəzərdə tutulmuş humanitar yardım çatdırılıb. Partiyanın bu yardımı erməni vandalizminin qurbanına çevrilmiş, erməni təxribatı nəticəsində evləri dağılmış, eləcə də həlak olmuş vətəndaşlarımızın ailələrinə təqdim edilib.

Görüşlərdə iştirak edən Bərdə sakinləri Ali Baş Komandanımız, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı böyük qələbədən qürur duyduqlarını bildiriblər.

"Bakı-Naxçıvan-İstanbul sürət qatarı ilə gedəcəyim günün uzaqda olmadığına inanıram"

Milli Məclisin deputatı Musa Urud www.yap.org.az saytına müsahibə verib:

- Musa müəllim, bildiyimiz kimi, noyabrın 10-da Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri arasında bəyanat imzalanıb. Sizcə, bu bəyanatın əhəmiyyəti nədən ibarətdir?

- Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Milli Ordumuz Qarabağda zəfər çaldı, torpaqlarımız işğaldan azad olundu, ərazi bütövlüyümüz təmin edildi. Xalqımızı uzun illərdir sıxan, əzən məğlubiyyət kompleksi zəfər coşqusu ilə əvəz olundu. Möhtəşəm milli birlik yarandı, tarixə adımızı qalib xalq kimi yazdırdıq. Ali Baş Komandan cənab İlham Əliyev tarixin gedişini dəyişən bu 44 gün ərzində müxtəlif cəbhələrdə misli görünməmiş fərdi qəhrəmanlıq, sərkərdə qətiyyəti, diplomat çevikliyi, rəhbər müdrikliyi nümayiş etdirdi. Torpaqlarımız bir-birinin ardınca işğaldan azad edildikcə cənab Prezidentin müjdə xəbərli çıxışları, müraciətləri Ordumuzun qələbə əzmini daha da artırdı, xalqı bir dəmir yumruq kimi birləşdirdi.

Bu günlər ərzində cənab Prezident İlham Əliyev dünyanın 30-dan artıq nüfuzlu televiziyasına və mətbuat orqanına verdiyi müsahibələri ilə Azərbaycanın haqq işini bir daha dünya xalqlarının diqqətinə çatdırdı. Bu müsahibələr hamımızın gözü qarşısında baş verib və ədalətli, tərəfsiz jurnalistlərlə yanaşı, "ermənidən daha artıq erməni" olanları da gördük. Cənab Prezidentin iti ağlı, dərin biliyi, geniş məlumatı və dəmir məntiqi qarşısında onların əyilən sifətlərini də ləzzətlə seyr etdik. Nəhayət, Ermənistan rəhbərliyi məğlub olduğunu dərk etdi, təslim olduğunu boynuna aldı, Paşinyan atəşkəs bəyanatına imza atdı.

Konfliktin müharibə fazası yerini sülh müstəvisinə verdi, noyabr ayının sonuna qədər Kəlbəcər, Ağdam, Laçın rayonlarının işğaldan azad olunması öhdəliyi qüvvəyə mindi. Status-kvo deyilən oyun bitdi, Dağlıq Qarabağın statusunun müzakirə mövzusu qapandı, Azərbaycanın ərazi bütövlüyü təmin edildi. Naxçıvana kommunikasiyaların açılması, yolların çəkilməsi reallaşdı, Türk dünyasının mənəvi birliyi ilə yanaşı, coğrafi bağlantısı arzularımız çin oldu.

Bölgədə əmin-amanlığın və sülhün təmin olunması məqsədilə Rusiyanın kiçik bir hərbi kontingenti 5 il müddətində fəaliyyət göstərəcək. Türkiyə hərbçilərinin iştirakı ilə atəşkəsə nəzarət üçün mərkəz yaradılacaq. Bölgədə sülh, ədalət, əmin-amanlıq bərpa olunacaq, yeni reallıqlar yeni düşüncə, yeni davranış və yeni münasibətlərin formalaşmasına əlverişli mühit yaranacaq.

Xalq bu uğurları, görür, dəstəkləyir, sevinir, öz minnətdarlığını və sevgisini Ali Baş Komandana, müzəffər Milli Ordumuza çatdırır. Bu sevincdən bütün dünya azərbaycanlılarına pay düşür, haqqı, ədaləti, sülhü istəyən hər kəsə pay düşür. Daha çox sevinmək və qürur duymaq haqqı isə, heç şübhəsiz ki, şəhid ailələrinin, qazilərimizin, əsgər və zabitlərimizin payına düşür. Bu sevincdən qardaş Türkiyə başda olmaqla bütün Türk dünyasına pay düşür.

- Radikal müxalifət nümayəndələri əldə olunmuş bu razılaşmaları spekulyasiya etməyə çalışırlar. Buna münasibətiniz necədir?

- Təəssüf, min təəssüf ki, xalqımızın bu zəfərindən sevinməyən, kədərə qərq olan şovinist və revanşist ermənilər və erməniyanlılarla bir sırada dayanan bəzi radikal müxalifət nümayəndələrinin və Sorosun "nigahdan kənar uşaqları"nın orda-burda səslənən fikirlərində milli zəfər yürüşümüzə kölgə salmaq, uğurlarımıza çamur atmaq, xalqın sevincinin şirin aşına murdar şübhə toxumu səpmək niyyətləri də hiss edilməkdədir.

Nə deyir və nə istəyir bu adamlar? Sona qədər döyüş əməliyyatlarını davam etdirməli idik, deyirlər. Hər müharibənin sonu danışıqlarla bitmirmi? Razılaşma yolu ilə, bir güllə atmadan, bir əsgərin burnu qanamadan, bir şəhid vermədən Kəlbəcəri, Ağdamı, Laçını azad etməyimiz niyə bu sorosoviçlərin xoşuna gəlmir? Bəyəm bunlar bilmirlərmi ki, müharibənin hər günü büdcəmizdən milyonlarla manat "yeyir"?

Bəyəm onlar dərk etmirlər ki, cənab Prezidentin bir damcı mürəkkəblə imzaladığı bəyanatla yüzlərlə, bəlkə də minlərlə əsgər və zabitimizin sağlamlığı və həyatı qurtarmış oldu? Müharibənin sona qədər davam etməsi ərazi bütövlüyümüzün təmin olunması üçün idi, bu məqsədə də çatmışıq, 20 gündən sonra işğal altında bir qarış da olsun torpağımız qalmayacaq. Bəyəm bu adamların yadından çıxıbmı ki, lap yaxın zamanlaradək ermənilərə Dağlıq Qarabağda ən yüksək status verməyə hazır idik və belə təkliflər masa üzərində uzun illər müzakirə olunurdu, ermənilər isə təmas xəttinin və status-kvonun dəyişməməsində qərarlı idilər. İndi nə təmas xətti yoxdur, nə status yoxdur, nə də status- kvo!

Yoxsa Paşinyanın başına vurduğumuz zopanın bir ucu da onlara dəyib və yaddaşlarını itiriblər? Dağlıq Qarabağda bir nəfər də olsun erməni qalmamalıdır deyənlər, ciddimisiniz? Dünyadan xəbəriniz varmı? Beynəlxalq qanunlardan, güclərdən, Azərbaycana olan basqılardan baş vermiş və baş verə biləcək təxribatlardan xəbəriniz varmı? Etnik təmizləmə nə deməkdir, bilirsinizmi? Bunun bədəlinin necə ağır olacağını dərk edirsinizmi? 1988-ci ildə təxribat nəticəsində Sumqayıtda 30-a yaxın mülki erməni ölmüşdü, indiyədək bu təxribatın qarayaxmasından, böhtanlarından qurtara bilmirik, indi deyirsiniz niyə Xankəndini təmizləmədik, döyüşlə almadıq?

Dünya bizi ədalətli, tolerant, milli, etnik, dini ayrı-seçkilik salmayan bir sivil ölkə kimi tanıyır. Bu siyasətimiz də davam edəcək, xalqımıza dövlətimizə qarşı cinayət edənlər mühakimə olunub cəzasını alacaq, cinayətdə iştirakı olmayan erməni vətəndaşlar isə digər vətəndaşlarımız kimi dövlətimizin qanunları və himayəsi altında olacaqlar. Qalan məsələləri isə zaman göstərəcək!

Siyasət mümkün olanı etmək sənətidir, bəylər, boş-boş illuziyalar deyil. Yaxşı olar ki, yazasınız, şəxsən siz, hər biriniz bu Vətən Müharibəsində Qarabağ üçün nə etdiniz? Şəhid verdinizmi? Bir şəhid anasını bağrınıza basıb, gözünün yaşını sildinizmi?

Rusiya sülhməramlıları bölgəyə gəlməsin deyirsiniz. Kimlər gəlsin? Türkiyəmi? Mən də istəyərdim ki, Türkiyə olsun, amma reallıqlar başqa şeydir, unutmayaq ki, Türkiyə NATO blokundadır, burada həm də ermənipərəst Fransa da var, blokun qərarı lazımdır. Digər tərəfdən, sülhməramlıların kimliyi məsələsində münaqişə edən hər iki tərəfin fikri üst-üstə düşməlidir. Onsuz da Türkiyənin sülhyaratma prosesində iştirakı təmin olunacaq, türk hərbçilərinin iştirakı ilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəz yaradılacaq.

- İşğaldan azad olunmuş ərazilərimizin gələcəyini necə təsəvvür edirsiniz?

- Müharibənin ilk günlərində cənab Ali Baş Komandan xalqa müraciətində dərin mənalı bir fikir söylədi: "Nəyi, nə zaman və necə etməyi mən bilirəm!". Bəli, zaman göstərdi ki, həmişə olduğu kimi, bu dəfə də Prezident İlham Əliyev xalqı və Vətəni naminə ən doğru olanı edib, edir və gələcəkdə də edəcəkdir.

Mən Qarabağın yenidən qurulacağı, çiçəklənəcəyi, inkişaf edəcəyi, dünyanın turizm mərkəzlərindən birinə çevriləcəyi günlərin lap yaxında olduğunu hiss edirəm. Mən Bakı-Naxçıvan-İstanbul sürət qatarı ilə gedəcəyim günün də uzaqda olmadığına inanıram və arzu edirəm ki, həmin qatarda təsadüfən yol yoldaşım ola biləcək radikal fikirli soydaşlarım indi tutduqları səhv mövqedən tövbə edib düz yola qayıtsınlar ki, Türk coğrafiyasını birləşdirəcək bu düz yolun müqəddəsliyindən utanmasınlar. Bu yol həm də, qədim Zəngəzur torpağından keçir və bizi arzularımıza qovuşduran bu dəhlizin genişlənəcəyi günün də uzaqda olmadığına inanıram.

Ümummilli Lider Heydər Əliyev böyük müdrikliklə deyirdi: "Tarix hər şeyi öz yerinə qoyur! Tarixin güllü-çiçəkli, şərəfli səhifələri də var, zibilli küncü də. Tarixdə harada dayanmağı isə hər kəs özü müəyyən edir: öz əməli ilə, xisləti ilə, fəaliyyəti ilə!"

Şəmsəddin Hacıyev: Azərbaycan xalqı bu gün misilsiz qələbə sevinci, yüksək fəxarət duyğusu, hədsiz fərəh və qürur hissləri yaşayır

"Azərbaycan xalqı bu gün sözlə ifadə edilməsi mümkün olmayan misilsiz qələbə sevinci, yüksək fəxarət duyğusu, hədsiz fərəh, qürur hissləri yaşayır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə yenilməz, rəşadətli Azərbaycan Ordusu 44 gün ərzində torpaqlarımızı işğaldan azad etdi, ölkəmizin ərazi bütövlüyü bərpa olundu, müstəqil Azərbaycan işğalçı Ermənistan üzərində qətiyyətli tarixi qələbə qazandı". Bu sözləri qəzetimizə açıqlamasında Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının sədri, iqtisad elmləri doktoru, professor Şəmsəddin Hacıyev deyib.

Ş.Hacıyev bildirib ki, onilliklər boyunca Vətən torpağında həlak olan şəhidlərimizin, etnik zəmində xüsusi qəddarlıqla qətlə yetirilən dinc azərbaycanlıların, amansız işgəncələrə məruz qalan günahsız insanlarımızın, körpələrin, qadınların, uşaqların, ahılların doğma yurdyuvasından didərgin salınan soydaşlarımızın qisası bu faciələri törədən erməni qatillərindən və onların cinayətkar, faşist dövlətindən alındı: *"Ali Baş Komandan İlham Əliyev xalq-iqtidar-ordu birliyinin nəticəsi olan "dəmir yumruğ"u ilə işğalçı Ermənistanın belini qırdı, sözün əsl mənasında, terror dövləti olan bu kriminal rejimin, ümumilikdə "dünya ermənilyi" mifinin başını əzdi, ermənilərin əsl xislətini, həyasız yalanlarını, faşist simasını əsaslı sübutlar və konkret faktlarla dünya ictimaiyyətinə nümayiş etdirdi. Eyni zamanda, bütün Azərbaycan xalqı Prezidentimizin ətrafında dəmir yumruq kimi birləşərək sözün əsl mənasında böyük xalq, ulu türk millətinin cəsur, qəhrəman bir boyu olduğunu bir daha sübut etdi, bu günlərdə misilsiz birlik, həmrəylik nümayiş etdirdi və cəmiyyətimizdə mövcud olan xalq-lider-ordu birliyini daha yüksək səviyyəyə qaldırdı".*

Şəmsəddin Hacıyevin sözlərinə görə, xalq öz Liderinə ürəkdən inandı və Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqının etimadını əməli fəaliyyəti və şanlı zəfəri ilə doğrultdu: *"Möhtərəm Prezidentimiz Öz qətiyyəti, sarsılmaz iradəsi, cəsarəti ilə, Azərbaycana edilən bütün təzyiqlərə məharətlə sinə gərməklə Azərbaycan xalqına söz verdiyi kimi sona qədər getdi, Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi və şəhidlərimizin qisasını aldı. Əminliklə deyə bilərik ki, cənab İlham Əliyev Öz adını Müzəffər sərkərdə kimi Azərbaycan xalqının yaddaşına qızıl hərflərlə əbədi həkk etdi. Prezident İlham Əliyev Azərbaycanın ürəyi olan Qarabağın tacı, göz bəbəyi, mədəniyyət paytaxtı Şuşa şəhərini, eyni zamanda, 28 ildir ki, işğal altında olan Zəngilan, Qubadlı, Füzuli, Cəbrayıl şəhərlərini, neçə-neçə qəsəbələrimizi, kəndlərimizi, strateji yüksəkliklərimizi, tarixi Xudafərin körpüsünü, bir sözlə, Azərbaycanın mənfur düşmən tapdağında olan ərazilərini işğaldan azad etdi. Vətən Müharibəsində qazandığımız bu tarixi qələbədə, əlbəttə ki, Azərbaycan Ordusunun, Silahlı Qüvvələrimizin bütün əsgər və zabitlərinin, Azərbaycan hərbçilərinin misilsiz rolu mütləqdir".*

Ali Baş Komandanımızın rəhbərliyi ilə Azərbaycan Ordusunun yüksək peşəkarlıq, məharət və fədakarlıq nümayiş etdirərək müasir hərb tariximizin ən şanlı qələbələrini qazandığını deyən rayon təşkilatının sədri bildirib ki, ölkəmiz XXI əsrin yeni müharibə modelini bütün dünyaya təqdim etdi: *"Müqəddəs Azərbaycan torpağını Vətən edən bütün qəhrəmanlarımızın, şəhidlərimizin, qazilərimizin, ön və arxa cəbhədə fədakarlıqla bu işə töhfə verən Azərbaycan hərbçilərinin, onların valideynlərinin, ailə üzvlərinin, xüsusilə bütün şəhid analarının qarşısında baş əyirik. Bu qələbə sevincimizi, Vətən torpağının azadlığını biz Ali Baş Komandanımıza və Azərbaycan əsgərinə, bu şanlı tarixi qanı, canı ilə yazan şəhidlərimizə borcluyuq. Azərbaycan xalqı 44 günlük Vətən müharibəsinin hər bir günündə düşmənin başına od ələyən, onu əzib kecən, Azərbaycan xalqına hər gün yeni qələbə xəbərləri, yeni azad olunmuş torpaqların zəfər xəbərini bəxş edən Azərbaycan əsgərlərinin hər birinin əziz xatirəsini daim yaşadacaq və uca tutacaqdır".*

O vurğulayıb ki, bu qədər qısa müddət ərzində yeni əsrin yeni hərb nümunəsini yaradan, mənfur düşmənin illərlə qurduğu, möhkəmləndirdiyi istehkamları, saysız-hesabsız hərbi texnikasını məhv edən və torpaqlarımızı azad edən Azərbaycan Ordusunun bu möhtəşəm hərbi qələbəsi hələ uzun illər hərbi ekspertlər, tarixçilər, siyasətçilər və s. tərəfindən araşdırılacaq, öyrəniləcək.

"İşğaldan azad olunan Azərbaycan torpaqlarında, Şuşada bu gün 28 ildən sonra azan səsləndirilir, şanlı Azərbaycan bayrağı dalğalanır, uzun illərdir, ermənilər tərəfindən işğal altında saxlanılan 132 km-lik Azərbaycan-İran sərhədində artıq Azərbaycan sərhədçiləri dayanır, gənc nəslin tarix dərsliklərində haqqında oxuduğu Xudafərin körpüsündə Azərbaycan bayrağı ucalır və Azərbaycan xalqı Qarabağa qayıdır. Müzəffər Ali Baş Komandanımızın sözləri ilə desək: "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!" Bəli, biz Qarabağa qayıdırıq. Biz işğaldan azad olunan o torpaqları cənnətə çevirəcəyik. Dağıdılmış məscidlərimizi, məktəblərimizi, digər sosial infrastruktur obyektlərimizi yenidən quracağıq, yaradacağıq, tikəcəyik, dağıdılmış iqtisadiyyatı bərpa edəcəyik. Bu bölgədə mövcud olan böyük potensialı iqtisadi dövriyyəyə cəlb edəcəyik. Ərazi bütövlüyü bərpa olunmuş müstəqil Azərbaycanı ən inkişaf etmiş dövlətlərdən birinə çevirəcəyik.

Azərbaycan xalqı xoşbəxt xalqdır, çünki bu xalq Müzəffər Ali Baş Komandan İlham Əliyevə inandı və "dəmir yumruğu" ilə müqəddəs Vətən torpağının ərazi bütövlüyünü bərpa etdi. Gözün aydın, Vətən! Gözün aydın, Azərbaycan! Gözün aydın, Şuşa, Qarabağ! Möhtəşəm Azərbaycanın şanlı tarixinin yeni salnaməsi başlayır! Yaşasın Ali Baş Komandanımız İlham Əliyev! Yaşasın yenilməz, rəşadətli Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır! Və bu həqiqət əbədidir", - deyə Şəmsəddin Hacıyev söyləyib.

Müşfiqə

Vətən müharibəsində qazandığımız Qələbə Azərbaycan tarixində əbədi qalacaq

Sentyabrın 27-dən etibarən başlayan əks-hücum əməliyyatları Azərbaycanın hərbi qüdrətini göstərdi, yüksək döyüş bacarığını nümayiş etdirdi. Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanının rəhbərliyi ilə rəşadətli Ordumuz cəmi 44 gün davam edən Vətən müharibəsi zamanı erməni ordusu haqqında uydurulan illüziyaları alt-üst etdi. Döyüşlərin ilk günlərindən etibarən Ermənistanın hərbi xuntası ümid edirdi ki, hansısa dövlət Azərbaycanı bu haqq işindən dayandıracaq, beynəlxalq birlik ölkəmizə təzyiq edərək işğalçı dövləti xilas edəcək.

AZƏRTAC xəbər verir ki, bu fikirləri Milli Məclisin deputatı Ağalar Vəliyev bildirib.

Deputat deyib ki, Prezident, Ali Baş Komandan İlham Əliyev böyük siyasi iradə nümayiş etdirərək Azərbaycanın qəti və dəyişməz mövqeyini ortaya qoydu, dövlətimizə qarşı yönələn bütün beynəlxalq təzyiqlərə sinə gərərək ölkəmizin ərazi bütövlüyü təmin edilənə qədər Ordumuzun döyüşləri davam etdirəcəyini qəti və əzmkar şəkildə bəyan etdi.

Ermənistanın baş naziri Nikol Paşinyanın Azərbaycanı döyüşləri dayandırması üçün etdiyi bütün cəhdlər uğursuz oldu, onun Ermənistan-Azərbaycan münaqişəsinə dünyanın böyük dövlətlərini cəlb etmək xülyaları iflasa uğradı.

Bununla da döyüş meydanında şanlı tarix yazan Azərbaycan Ordusu ermənilərin 30 il ərzində qurduğu istehkamları qısa müddət ərzində darmadağın edərək, uğurlu əks-həmlə əməliyyatları nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kəndi işğaldan azad etdi.

Qarabağ müharibəsinin başladığı ilk günlərdən etibarən hissə-hissə azad olunan kəndlərimizin, qəsəbələrimizin, şəhər və rayonlarımızın adlarını görən hər bir azərbaycanlının sevinc və qürur hisslərindən ürəyi dağa dönürdü.

Böyük strateji əhəmiyyətə malik və Qafqazın incisi sayılan Şuşanın qüdrətli Ordumuz tərəfindən işğaldan azad edilməsi isə çox mühüm tarixi hadisəyə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin Şuşanın erməni işğalından azad edilməsi barədə müjdəsi Azərbaycan xalqı tərəfindən xüsusi coşqu ilə qarşılandı. Şuşanın azad edilməsi Azərbaycan xalqının möhtəşəm tarixi qələbəsinə çevrildi. Şuşanın azad edilməsi, eyni zamanda, dövlətimizin başçısı İlham Əliyevin parlaq qələbəsidir. Şuşanın azad edilməsi ilə Ermənistan çıxılmaz duruma düşdü. Şuşanın alınması Ermənistanı tam tərksilah etdi, onun bütün manevr imkanları çökdürüldü, Paşinyanın öz ölkəsini və dünya ictimaiyyətini aldatmaq taktikası əhəmiyyətini birdəfəlik itirdi. Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu ərazi bütövlüyümüzün təmin edilməsi yönündə öz vəzifəsini layiqli şəkildə yerinə yetirdi. 28 il işğal altında qalan mədəniyyət beşiyimiz olan Şuşanın azad edilməsi böyük siyasi, strateji və mənəvi məzmun daşıyır. Şuşanın azad edilməsindən bir gün sonra - Dövlət Bayrağı Günündə, noyabrın 9-da Azərbaycan Prezidenti İlham Əliyev daha 71 kəndin, iki qəsəbənin və 8 strateji yüksəkliyin işğaldan azad edildiyi barədə Azərbaycan xalqını məlumatlandırdı. Yaranmış vəziyyət Nikol Paşinyanı məcbur etdi ki, noyabrın 10-da məlum bəyanatı imzalasın. İmzalanan bəyanat Ermənistanın hərbi kapitulyasiyası deməkdir və Azərbaycanın siyasi maraqlarını təmin edən bir sənəddir. Bu bəyanat 30 ilə yaxın davam edən işğala birdəfəlik son qoyur.

Deputat qeyd edib ki, razılaşmaya əsasən, Ermənistan öz üzərinə Kəlbəcər, Laçın və Ağdam rayonları ərazisindən işğalçı qoşunlarının çıxarılması barədə öhdəlik götürür. Beləliklə, məcburi köçkün olan həmvətənlərimizin 30 illik yurd həsrətinə son qoyulur. Onlar öz doğma torpaqlarına qayıda biləcəklər. Daha bir vacib məqam ondan ibarətdir ki, imzalanmış bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yazılmayıb. Bu isə o deməkdir ki, Qarabağa heç bir status, muxtariyyət verilmir. Eyni zamanda, Naxçıvanın Azərbaycanın əsas hissəsi ilə əlaqəsi bu sənəddə təsbit edilir. Bununla da Naxçıvanı Azərbaycanın əsas hissəsi ilə quru yollarla birləşdirmək istiqamətində tarixi addım atıldı. Naxçıvanın 30 illik blokadasına son qoyulur, eyni zamanda, türk dünyasının birbaşa yerüstü tranzit-rabitə əlaqələri bərpa edilir.

Ağalar Vəliyev söyləyib ki, imzalanmış bəyanata əsasən, münaqişə tərəflərinin razılaşmalara əməl etməsinə nəzarətin səmərəliliyinin artırılması məqsədilə atəşkəsə nəzarət üzrə sülhməramlı mərkəzin yaradılması böyük əhəmiyyət daşıyır. Bu mərkəzdə Rusiya və Türkiyə hərbçiləri fəaliyyət göstərəcəklər. Bu, o deməkdir ki, Türkiyə rəsmi qaydada bu münaqişənin gələcək həlli və atəşkəsə nəzarət etmək işində rol oynayacaq. Yəni, bölgədə gələcək əməkdaşlıq formatında Türkiyə və Rusiya birgə iştirak edəcək.

Bir sözlə, Azərbaycan xalqı və dövləti böyük tarixi zəfər qazanıb. Noyabrın 11-də 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüş zamanı Müzəffər Ali Baş Komandan İlham Əliyevin söylədiyi kimi, bu Qələbə Azərbaycan tarixində əbədi qalacaq. Həm döyüş meydanında, həm danışıqlar masası arxasında biz istədiyimizə nail ola bildik. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Şuşa şəhərlərini hərbi güc hesabına azad edə bilmişik. Bayrağımızı o torpaqlara sancmışıq, bayrağımızı dalğalandırmışıq. Bu gün bütün dünya gördü ki, Azərbaycanın gücü nədən ibarətdir. Həm siyasi sahədə, həm hərbi quruculuq sahəsində, hərbçilərimizin peşəkarlığı sayəsində biz müharibənin ilk günlərindən üstünlüyü əldə etdik və ardıcıllıqla bu son hədəfə qədər uğurla irəliləmişik.